## Muxtar Babayev: COP29 sədrliyi olaraq, regional fəaliyyətlərlə bağlı təşəbbüslər irəli sürmüşük

Azərbaycan COP29-un örnək olması ilə bağlı öhdəlik götürüb. Biz sədrlik olaraq regional fəaliyyətləri həyata keçirmək üçün təşəbbüslər irəli sürmüşük.

AZƏRTAC xəbər verir ki, bunu COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iyulun 19-da COP29 Azərbaycan Sədrliyinin mətbuat konfransında deyib.

“Biz bütün tərəfləri bir araya gətirməyə, iqlim böhranlarından əziyyət çəkən milyonlarla insanın səsini eşitməyə çalışırıq. Onlar dərhal addımlar atılmasını tələb edirlər. COP29-da toplandığımız zaman bu icmaları diqqətimizdə saxlamalı, ortaq öhdəliklər və mənəvi borclarımız haqqında düşünməliyik”.

COP29 Azərbaycan Sədrliyinin ilk məktubları tərəfdaşlara göndərdiyini vurğulayan M.Babayev bildirib: “Həmin məktubda atılacaq addımların sürətləndirilməsinə çağırış etdik. Bütün prinsipləri, öz vizyonumuzu, atılan addımları və əsas dönüş nöqtələrini nəzərə alaraq şəbəkələr və koordinasiyalı addımlar vasitəsilə bu uğurlu mərama çatmalıyıq. COP29 Sədrliyi ədalətli və məsuliyyətli olmalı və 6-cı maddənin yekunlaşdırılmasına çalışmalıdır. Biz bütün digər prioritetlərimizi də həyata keçirməli, “Heç kimi geridə qoymamaq” prinsipi ilə harmoniya şəraitində fəaliyyət göstərməliyik. Biz bütün iqlim sütunlarının, qlobal, regional, milli və digər qrupların da fikirlərini alaraq dayanıqlı inkişafa nail olmağa çalışmalıyıq. Bunu inklüziv şəkildə həyata keçirməli və inklüziv nəticələr əldə etməliyik".

**AZƏRTAC
2024, 19 iyul**